# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli 406 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli 406 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1530 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 mart tarixli 137 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası”na 2 nömrəli əlavə - “Əlilliyi olan şəxslər üçün ambulator şəraitdə istifadə olunan ən vacib dərman preparatlarının siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

1. “Allergiya əleyhinə dərman vasitələri” hissəsinə aşağıdakı məzmunda 8-1-ci abzas əlavə edilsin:

| | | |
|---|---|---|
| 8-1. | Loratadin | tablet |

2. “Ürək damar sistemi üçün dərman vasitələri” hissəsinə aşağıdakı məzmunda 24-1-ci və 24-2-ci abzaslar əlavə edilsin:

| | | |
|---|---|---|
| 24-1. | Amlodipin+İndapamid+Perindopril | tablet |
| 24-2. | Ramipril | tablet |

3. “Beyin və periferik qan dövranını yaxşılaşdıran dərman vasitələri” hissəsinə aşağıdakı məzmunda 32-1-ci və 32-2-ci abzaslar əlavə edilsin:

| | | |
|---|---|---|
| 32-1. | Betahistin dihidroxlorid | tablet |
| 32-2. | Neostiqmin metilsulfat | inyeksiya üçün məhlul |

4. “Həzm sisteminə təsir edən dərman vasitələri” hissəsinə aşağıdakı məzmunda 44-1-ci abzas əlavə edilsin:

| | | |
|---|---|---|
| 44-1. | Bisakodil | tablet |

5. “Tənəffüs sisteminə təsir edən dərman vasitələri” hissəsinə aşağıdakı məzmunda 48-1-48-3-cü abzaslar əlavə edilsin:

| | | |
|---|---|---|
| 48-1. | Montelukast | tablet |
| 48-2. | Dornase alfa | inhalyasiya üçün məhlul |
| 48-3. | Hipertonik natrium xlorid məhlulu+natrium hialuronat | inhalyasiya üçün məhlul |

6. “Vitamin və minerallar” hissəsinə aşağıdakı məzmunda 57-1-ci abzas əlavə edilsin:

| | | |
|---|---|---|
| 57-1. | Maqnezium + Piridoksin HCl | tablet |

7. “Antimikrob dərman vasitələri” hissəsinə aşağıdakı məz-munda 60-1-60-5-ci abzaslar əlavə edilsin:

| | | |
|---|---|---|
| 60-1. | Metronidazol | tablet |
| 60-2. | Ofloksasin | tablet |
| 60-3. | Ko-trimoksazol | tablet |
| 60-4. | Tobramicin | inhalyasiya üçün məhlul |
| 60-5. | Siprofloksasin | tablet |

8. “Epilepsiya əleyhinə dərman vasitələri” hissəsinə aşağıdakı məzmunda 78-1-ci abzas əlavə edilsin:

| | | |
|---|---|---|
| 78-1. | Preqabalin | kapsul |

9. “Bazis iltihab əleyhinə (immunosupressiv) dərman vasitələri” hissəsinə aşağıdakı məzmunda 85-1-ci abzas əlavə edilsin:

| | | |
|---|---|---|
| 85-1. | Mikofenolat turşusu | tablet |

10. “Antipsixotik dərman vasitələri” hissəsinə aşağıdakı məzmunda 107-1-ci abzas əlavə edilsin:

| | | |
|---|---|---|
| 107-1. | Olanzapin | tablet |

11. “Trankvilizəedici dərman vasitələri” hissəsinə aşağıdakı məzmunda 113-1-ci abzas əlavə edilsin:

| | | |
|---|---|---|
| 113-1. | Tetrametiltetraazabisiklooktandion | tablet |

12. Aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

| | | |
|---|---|---|
| Metobolik proseslərə təsir edən dərman vasitələri | | |
| 119. | L-karnitin (levokarnitin) | məhlul |

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 24 may 2024-cü il

№ 280